# Ömür dastanım



**Fəzail İsmayıl Böyükkişi**

*Bütöv Azərbaycan Ocaqları (BAO) Abbas Lisaninin hüquqlarının Müdafiə Komitəsinin sədri*

***Bəllidir ki, Tanrını sevən və Tanrı sevən Türk övladlarının nəzərində poeziyadan qiymətli heçnə yoxdur. 65-yaşımın tamam olduğu bu günlərdə əziz və doğma yurdum Xınna mahalında "Turan dünyası" epopeyanı yazmağda davam edirəm. Epopeyanın hər misrasını yazdıqca qulaqlarımda Birgə xaqanın "Ey Türk özünə dön, sən özünə dönəndə yenilməz və güclü olursan", Nəsiminin "Varı möhnətdir cahanın, nə umarsan ey könül". Turqut Ozalın "XXI əsr - Türk əsridir" sözləri səslənir. "Turan dünyası" epopeyanın birinci "Tanrı eşqinin tərənnümü" - bölümü müasir dünyanın geosiyasi nizamı ilə bağlı olduğuna (yəni onda fəlakət qarşısındaki bəşəriyyətin nicatı göstərildiyinə) görə onu sevimli oxucularının diqqətinə çatdırıram.***

**Xınna mahalı "Şahzadə" İstirahət mərkəzi**
**15.08.22-ci il**
**Müəllif**

**(əvvəli ötən sayımızda)**

**Turan dünyası**
**(epopeyası)**

**Tanrı eşqi, Turan uşqi**
**(bölümü)...**

**(ixtisarla)**

*Gəl gör mənə eşq neylədi...*
**Yunis Əmrə**

### Tanrı eşqinin tərənnümü...

Tanrının nurudur, Tanrının eşqi,
Qəlbin qürurudur Tanrının eşqi.
Bu eşqlə nur yayıb can otağına,
Bu eşqlə düşmüşəm cənnət bağına.
Bu eşqlə canıma qəsd eləmişəm,
Bu eşqlə könlümü məst eləmişəm.
Bu eşqlə şövq ilə dilə gəlmişəm,
Bu eşqlə bülbül tək gülə gəlmişəm.
Bu eşqlə ən nurlu sima kimiyəm.
Bu eşqlə apaydın səma kimiyəm,

Bu eşqim səmadan əngindir mənim,
Bu eşqim zəngindən zəngindir mənim.
Bu eşqim silsilə Qafqaz dağları,
Bu eşqim ömrümün gülşən çağları.
Bu eşqlə ay-hilal təşnəsiyəm mən,
Bu eşqlə istiqlal təşnəsiyəm mən.
Bu eşqim Türk-Oğuz elimdir mənim,
Bu eşqim sevdalı könlümdür mənim.
Bu eşqlə könlümün sarı simiyəm,
Bu eşqlə həm Mənsur, həm Nəsimiyəm.
Bu eşqlə qanıma boyanıram hey,
Bu eşqlə qəflətdən oyanıram hey.
Bu eşqə sadiqəm yaranan gündən.
Bu eşim yarındır, yar anan gündən,
Bu eşqsiz dünyada heç nə, heç kiməm,
Bu eşqimlə vətən, millət eşqiməm.
Bu eşqim bir görün kimin eşqidir?!! -
Bu eşqim Məhəmməd Əmin eşqidir!!!
Bu eşqim "Turan"ın heyrəti eşqim!
Bu eşqim mərd Türkün qeyrəti eşqim,
Bu eşqim Türk ruhum, Türk qanım, canım,

Bu eşqim müqəddəs Azərbaycanım!!!
Bu eşqim tükənməz sərvət, vardımdır!!!
Bu eşqim fəxrimdir, iftixarımdır!!!
Bu eşqim yurdumun, yuvamın eşqi,
Bu eşqim elimin, obamın eşqi.
Bu eşq ailəmə məhəbbətimdir,
Bu eşq xoşbəxtliyim, səadətimdir.
Bu eşqlə qırmışam hey tilsimləri,
Bu eşqlə sevmişəm gül isimləri.
Bu eşqlə haqq sözüm, haqq səsim olub,
Bu eşqlə aldığım nəfəsim olub.
Bu eşqlə yansam da dönmərəm külə,
Bu eşqlə yaşaram ömrümü belə.
Bu eşqim ən çətin imtahanımdır,
Bu eşqim Tanrıdan ərmağanımdır.
Bu eşqim qənirsiz gözələ bənzər,
Bu eşqim qızılı xəzələ bənzər.
Bu eşqim Füzuli qəzəlindəndir,
Bu eşqim Tanrının gözəlindəndir.
Bu eşqə toxuna bilməz düşmənim,
Bu eşqim canıma ruh verər mənim.
Bu eşqlə oxşaram gözəllikləri,
Bu eşqlə yaşaram yüz illikləri.
Bu eşqlə zaman tək nəhayətsizəm,

Bu eşqlə dünyadan şikayətsizəm.
Bu eşq Tanrı eşqi, Tanrısız qalma,
Bu eşqi şəhvətlə dəyişik salma.
Bu eşq nə xəyaldır, nədəki röya,
Bu eşqin şahidi hər iki dünya.
Bu eşqin içində bəhrə barlanar,
Bu eşqlə kainat, yer vüqarlanar.
Bu eşqim uludur, sirlə doludur,
Bu eşqim ofsunlu karvan yoludur.
Bu eşqim cismimdən qoparar məni,
Bu eşqim Meraca aparar məni.
Bu eşqim din-iman əhli eşqimdir,
Bu eşqim Məhəmməd, Əli eşqimdir.
Bu eşqlə sanmayın kimsəsizəm mən,
Bu eşqlə Allaha ən əzizəm mən.
Bu eşqlə Adəm tək təmənnasızam,
Bu eşqlə həm ata, həm anasızam.
Bu eşqdə Adəmin fitrəti vardır,
Bu eşqdə Həvvanın ülfəti vardı.

Bu eşq sonsuz varım, mənən varlıyam,
Bu eşqlə hamıdan mən ən varlıyam.
Bu eşqdə Məryəmin məlalı vardır,
Bu eşqdə Süleyman cəlalı vardır.
Bu eşqi nə inni-cinni var dinlər,
Bu eşqdə Davudun neyidir inlər.
Bu eşqdir hey tutan haqq divanını,
Bu eşqdir qoparan Nuh tufanını.

Bu eşqdə Allahla danışır Musa,
Bu eşqdə atasız doğulur İsa.



Bu eşqin Gülüstani-İrəmiyəm mən,
Bu eşqin Sənanı, Kərəmiyəm mən.
Bu eşqin miqdarı sonsuz xəzinəm!!!
Bu eşqlə ruhu nur, səsi həzinəm!!!
Bu eşqlə dağlara qürur verərəm!!!
Bu eşqlə al Günəşə nur verərəm!!!
Bu eşqlə Fərhad tək dağ çapa billəm,
Bu eşqlə Tanrıyla dil tapa billəm.
Bu eşqi hey içər, amma doymaram,
Bu eşqimlə Tanrı qulu Teymuram!!!
Bu eşqimlə nadirdən də nadirəm!!!
Bu eşqimlə Çingiz,Fateh, Nadirəm.
Bu eşqin əzizi hər peyğəmbərdir,
Bu eşqdən yaranan cümlə bəşərdir.
Bu eşqi anlamaq çox-çox çətindir,
Bu eşqin ilki də, sonu da dindir.
Bu eşqi dindirən dinindir Allah,
Bu eşq mənim deyil sənindir Allah.
Bu eşqdə toy-düyün, matəmdə mənəm,
Bu eşqdə Adəm də, Xatəm də mənəm.
Bu eşq Nizamini gətirmiş dilə,
Bu eşqi Nizami vəsf etmiş belə:-
"Bu eşqsiz bir insan bir neydir qırıq,
Bu eşqsiz can varsa ölüdür artıq".
Bu eşqlə nur olar var olan varlıq,
Bu eşqsiz aləmi bürüyər xarlıq.
Bu eşq çəmənində gəzəndə gözəl,
Bu eşqlə gözəldir nazəndə gözəl.
Bu eşq məşuqudur: - Qız, gəlin, ana,
Bu eşqin aşiqi: - Ər də mərdana.
Bu eşqin övladı övladdır əsl,
Bu eşqdən xəlq olar ən xoşbəxt nəsil.
Bu eşq bilməz yalan, haram, oğurluq,
Bu eşq halallıqdır, bu eşq doğruluq.
Bu eşq zəngin, bu eşq əngin, dərindir,
Bu eşq Ana laylası tək şirindir.
Bu eşqlə həm Ata Tanrının qulu,
Bu eşqlə həm Ata Tanrı tək ulu.
Bu eşqdə Ananın vəhmi var Tanrı,
Bu eşqdə Atanın zəhmi var Tanrı.
Bu eşqlə bu dünya bərqərar olar,
Bu eşqlə yardakı, yara yar olar.

Bu eşqi içməyən dil aça bilməz,
Bu eşqdə çimməyən nur saça bilməz.
Bu eşqdir nəfəsim məni hey qına,
Bu eşqi anlamaz vələdizina.
Bu eşqsiz hər insan cəmdək, cəsəddir,
Bu eşqsiz hər insan sümükdür, ətdir.
Bu eşq Tanrı ruhu, aurasıdır,
Bu eşq gözəlliyin naturasıdır..
Bu eşq səlist məntiq, kamil hikmətdir,
Bu eşq ən mükəmməl, saf təbiətdir.
Bu eşq rəhimlidir, bağışlayandır,
Bu eşqsiz Qiyamət başlayan andır.
Bu eşqsiz olanmaz yar yarın yarı,
Bu eşqi alanmaz dünyanın varı.
Bu eşqə eylərəm hər an təşəkkür,
Bu eşq məni məndən alıb çox şükür.
Bu eşqlə Tanrıdır sahibim, yiyəm,
Bu eşqlə Tanrıma sadiq bəndəyəm.
Bu eşqlə ötdüm ki, Əmr Teymuru.
Bu eşqlə çalınsın İsrafil suru.
Bu eşq ola bilməz cəvahirət, ləl.
Bu eşq axirətə keçən xoş əməl.
Bu eşqdən nadanlar eyləyər giley,
Bu eşq kainatı nizamlayar hey.
Bu eşqlə yaşayan xoşbəxt insandır,
Bu eşqi itirmək çox-çox asandır.
Bu eşqi qazanmaq çətindir amma,
Bu eşq ünyetməzdir, bu eşq müəmma.
Bu eşqi saf niyyət ram edər yalnız,
Bu eşqi məhəbbət ram edər yalnız.
Bu eşqi olmayan qəhr edər onu,
Bu eşqi olan da şərh edər onu,
Bu eşqdir behiştim Gülüstani-İrəm-,
Bu eşqi qavrayan mütəfəkkirəm.
Bu eşqi vəsf edən şairəm həm də,
Bu eşqin "Turan"ı nurdur könlümdə ,
Bu eşqin "Turan"ı Turda nurumdur.
Bu eşqqim yenilməz dağ qürurumdur.
Bu eşqi anlaya bilməz hər insan.
Bu eşqdə tapılmaz zərrəcə nöqsan.
Bu eşqə hamıda hədsizdir maraq,
Bu eşqlə "Turan"dan verərəm soraq.

Bu eşq küllü-aləm, yer kürəsidir.
Bu eşq ucalığın son zirvəsidir.
Bu eşqi yaradan Tanrıya əhsən,
Bu eşq mən deyiləm, ey Tanrım sənsən.
Bu eşqlə mən səndə sona çatmışam.
Bu eşqlə "Turan"ı mən yaratmışam,
Bu eşq Tanrısıyla əhd eləmişəm.
Bu eşqlə "Turan"ı fəth eləmişəm.
Bu eşq qəlbi natəmizə qəlizdir.
Bu eşq qəlbi təmizəsə təmizdir!!!
Bu eşqlə "Turan"da Tur dağıyam mən!!!
Bu eşqlə "Turan"ın bayrağıyam mən!!!
Bu eşq İbrahimin "Turan"ındadır.
Bu eşq "Turan"ın da hər anındadır.
Bu eşq "Turan"ından bilin danışmaq.
Bu eşq Tanrısının iznidir ancaq.
Bu eşqdir ayrılan od ilə buzdan-,
Bu eşqdir köçrülən Lövhü- Möhfuzdan.
Bu eşqdir ruhumu oxşayan indi,
Bu eşqin ruhu da Tanrım sənindi.
Bu eşqlə öldürrəm ölümləri hey.
Bu eşqlə yenirəm zülümləri hey.
Bu eşqlə nə aciz, nə də naçaram.
Bu eşqlə açılmaz sirlər açaram.
Bu eşqlə zülmətdə Günəş yandırram,
Bu eşqlə nə tilsim varsa sındırram.
Bu eşqin "Turan"ı "Quran"dır demək,
Bu eşq İbrahimə vəhylə gələrək.
Bu eşqi Cəbrayıl mələk deyibdir,
Bu eşqi İsmayıl dərk eləyibdir.
Bu eşq cahillərə fərziyə gəlib,
Bu eşq İsmayılda ərsiyə gəlib.
Bu eşqdə bir millət, bir hümmət olub.
Bu eşqdə elm, ədəb, fəzilət olub.
Bu eşq "Turan"ıyla Tanrını eşit.
Bu eşqdə hər iki dünyadır behişt.
Bu eşqdə vəhdəti- vücuddur insan!!!
Bu eşqdə Qorquddur, bozqurddur insan!!!
Bu eşqdə ruh oxşar qopuz, ud, qaval,
Bu eşqdə bozqurd var, Türkə yox zaval.
Bu eşqdə Türklüyün xır-xırı çıxmır-,
Bu eşqdə yəcucun çınqırı çıxmır-,.

Bu eşqdə mərhəmət Türkü dərkdədir.
Bu eşqdə, ağıl, güc Türkə ərkdədir-,
Bu eşq Türk ərinin müşk-əmbəridir ,
Bu eşq Türkün iki peyğəmbəridir.
Bu eşq İbrahimdir, bu eşq İsmayıl?
Bu eşqi dinləyib qəflətdən ayıl?
Bu eşqlə yaradıb məni də Tanrı,
Bu eşqdə uca yox mən Türkdən anrı.
Bu eşq "Tanrı" eşqi, "Turan" eşqidir!!!
Bu eşq Allah eşqi, "Quran" eşqidir!!!
Bu eşqin Tanrısı bilməyib qərəz.
Bu eşqdə tapılmaz dərd, illət, mərəz.
Bu eşqin "Turan"ı bil nə "Turan"dır.
Bu eşq "Zabur", "Tövrat", "İncil", "Quran"-dır.
Bu eşq Tanrısında yoxdur bir yalan,
Bu eşq Tanrısından "Turan"dır qalan.
Bu eşq Tanrısından nur alar Günəş,
Bu eşq Tanrısıyla var olar Günəş.
Bu eşq Tanrısıyla zülmət yarılar,
Bu eşq Tanrısıyla sular durular.
Bu eşqlə ay-ulduz hey halələnər,
Bu eşqlə çay coşub şəlalələnər.
Bu eşqlə nurlanar hər oba, hər yurd,
Bu eşq Tanrısına sığınar Qorqud.
Bu eşqlə söz söylər, boy boylar Türkə,
Bu eşqlə dirənməz Turk ağzı bərkə-.
Bu eşqə canını eyləyər fəda.
Bu eşqlə yetişər Qorqud hey dada,
Bu eşqlə qopuzu basır bağrına,
Bu eşqi müjdədir Türkün uğruna.
Bu eşqi Təpəgöz qas-qas yamsılar.
Bu eşqin Basatı onu basmalar,
Bu eşqin "Turan"ı Tura yüksələr.
Bu eşqə xor baxan enər, əksilər,
Bu eşqin şər səmtə axarı yoxdur,
Bu eşqdən ən uca, yuxarı yoxdur.
Bu eşqim ruhumdur, aşiyanımdır,
Bu eşqim əbədi yaşıyanımdır.
Bu eşq məndə mənin xoş sabahıdır!!!
Bu eşq, eşq Tanrısı, eşq Allahıdır!!!
Bu eşqi Fəzail qələmə aldı,
Bu eşqi vəsf edib, əbədi qaldı!!!